**050109 – "Kimya müəllimliyi" ixtisasının qısa təsviri**

Təbiət elmləri arasında özünəməxsus yeri olan fənlərdən biri Kimyadır. Kimya müəllimliyi ixtisasında təhsil almağın üstünlüyü ondan ibarətdir ki, kimyəvi bilik və bacarıqlara, gündəlik həyatımızda kimyəvi maddələrlə davranış və istifadə qaydalarına, habelə Kimya fənni üzrə gələcəkdə istifadə etmək üçün lazımi bilik, bacarıq və vərdişlərə dərindən yiyələnirsən. Kimya müəllimliyi ixtisası üzrə təhsil proqramını mənimsəyən mütəxəssis kimyəvi müşahidə, təcrübə və eksperimentlərin mahiyyətini, kimya üzrə qazanılmış bilik, bacarıq və vərdişlərə uyğun olaraq problemlərin həllində iştirak etməyə hazır olmağı öyrənir. Bu ixtisas üzrə məzunlar ixtisas biliklərindən əlavə, həm də aşağıdakı bir sıra ümumədəni və peşə kompetensiyalarına (səriştələrə) yiyələnirlər:

- Kollektivdə öz həmkarları ilə birlikdə işləməyi, optimal qərarlar qəbul etməyi bacarmaq, idarəetmə metodlarına yiyələnmək;
- Yeni ideyalar irəli sürmək və əsaslandırmaq;
- Mədəniyyətlərarası dialoqa hazır olmaq;
- Problemli şəraitdə təşəbbüskarlıq göstərmək;
- Tənqid və özünütənqidə dözümlülük göstərmək;
- Peşə fəaliyyəti sahəsinə aid olan fənlərin əsas problemlərini bilmək və konkret şəraitdə tətbiq etməyi bacarmaq;
- Şagirdlərin müəyyən qruplarına rəhbərlik etməyi bacarmaq.

Bu ixtisas üzrə bakalvr dərəcəsini almaqla orta ümumtəhsil məktəblərində, müxtəlif tədris mərkəzlərində və hazırlıq kurslarında, liseylərdə, orta ixtisas təhsili müəssisələrində (kolleclər), magistr dərəcəsini almaqla isə həm də universitetlərdə kimya müəllimi kimi işləyə bilər. İxtisas üzrə təhsil proqramının normativ mənimsəmə müddəti 4 ildir.